*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 77-83* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.77*

# Milli romantizm məsələləri yeni araşdırma müstəvisində
## *(Yaşar Qarayevin "Faciə və qəhrəman" əsərinə istinadən)*

**Leyla Allahverdiyeva**
Filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti. Azərbaycan.
E-mail: lela_leyla@mail.ru

**Annotasiya.** Məqalədə milli romantizm və Cavid faciələrinin tədqiq məsələləri araşdırılmışdır. Araşdırmanın tədqiq obyekti Yaşar Qarayevin "Faciə və qəhrəman" əsərindən "Şeyx Sənan" və "İblis" faciələrinin təhlilidir. Milli romantizmin ən klassik nümunələri kimi bu əsərlərin sovet ədəbi tənqidinin ideoloji təhlilindən sonra yeni araşdırma müstəvisində tədqiq metodologiyasını çözmək məqalənin məqsədidir. Bu məqsədi həyata keçirmək üçün ilk öncə vulqar-sosioloji tənqidin milli romantizmə münasibəti araşdırılmış, bu münasibəti formalaşdıran amillər, onların təhlil prinsiplərinə təsiri üzərində dayanılmışdır.
Yaşar Qarayev romantik irsin təhlilində ideoloji tənqidə qarşı yeni elmi-nəzəri bir konsepsiya ortaya qoyur ki, məqalədə onun nəzəri müddəaları, idraki, estetik tərəfləri araşdırılır. Bu qənaətə gəlinir ki, Yaşar Qarayevin araşdırması romantik ədəbiyyatı əks cəbhənin sənəti kimi anlayıb tədqiq etmək tərzinə son qoyur. Bu araşdırma yalnız romantizmin tədqiqində deyil, ümumiyyətlə, elmi-filoloji fikrin inkişafında yeni bir mərhələ idi.
**Açar sözlər**: milli romantizm, faciə, Hüseyn Cavid, sovet, Yaşar Qarayev, ədəbi irs

**Məqalə tarixçəsi:** göndərilib – 02.05.2023; qəbul edilib – 25.05.2023

# Problems of national romanticism in a new context of research
## *(Based on the work of Yashar Garayev "Tragedy and the Hero")*

**Leyla Allahverdiyeva**
Doctor of Philosophy in Philology
Sumgait State University. Azerbaijan.
E-mail: lela_leyla@mail.ru

**Abstract.** The article consistently considers the study issues of the ideas of national romanticism and the tragedies by Javid. In particular, the analysis of the tragedies "Sheikh Sanan" and "Iblis" based on the work of Yashar Garayev "Tragedy and the Hero" was made. The methodological, conceptual basis for the study of these works today was determined, taking into account the experience of ideological analysis by Soviet literary criticism of these works, as classic examples of national romanticism. To achieve this goal, first of all, the attitude of vulgar sociological criticism

to national romanticism was studied, the factors that form this attitude and their influence on the principles of analysis were identified.
Yashar Garayev, in the analysis of the romantic heritage, against the ideological criticism, formulates a new scientific and theoretical concept. The article discusses the theoretical provisions, cognitive and aesthetic aspects of this concept. It is concluded that the study of Yashar Garayev terminates the understanding and study of romantic literature as the art of the opposite front. This study was a new stage not only in the study of romanticism, but also in the development of scientific and philological thought in general.
**Keywords:** national romanticism, tragedy, Huseyn Javid, soviet, Yashar Garayev, literary heritage

**Article history:** received – 02.05.2023; accepted − 25.05.2023

## Giriş / *Introduction*

Sovet ədəbiyyatşünaslığı, əsasında marksist dünyagörüşünün durduğu ədəbi bir sistem idi ki, ədəbiyyatın təhlilində sənətin yox, siyasi ideologiyanın prinsiplərindən çıxış edir, sosial-sinfi mövqe ortaya qoyurdu. Bu ədəbi sistemdə dövrün yaradıcılıq metodu olan sosialist realizminin ədəbi görüşləri yalnız müasir ədəbi prosesə deyil, həm də irsə münasibətdə təhlil rakursuna çevrilirdi.

Realizmi sosialist realizminin sələfi kimi anlayıb dərk edən marksist ədəbiyyatşünaslığı realistik irsə daha sıcaq, romantik irsə isə daha soyuq münasibətdə idi. Romantik ədəbiyyat şura ədəbiyyatının zehniyyətindən və ruhundan çox uzaq idi, odur ki, ədəbi irsin siyasi-ideoloji təftişində marksist ədəbiyyatşünaslığının tələblərinə cavab verə bilmirdi. Ona görə də romantik sənət sovet tədqiqatlarında bir qədər dışlanmış, həyat həqiqətlərindən uzaq, fəlsəfəçi, mücərrəd bir sənət kimi damğalanmış, mürtəce və mütərəqqi kimi bölgülərdə təfsir olunmuşdu.

Sovet ədəbiyyatşünaslığının romantik sənət haqqında ədəbi-estetik təsəvvürləri əsasən milli romantizmin banisi Hüseyn Cavidin yaradıcılığına münasibətdə özünü göstərirdi. Bu məktəbin görkəmli nümayəndələrindən olan Ə.Sultanlı “Hüseyn Cavid faciələri” məqaləsində yazırdı: “O, (Hüseyn Cavid – L.A) realist yazıçılar kimi xəstə cəmiyyətin əsas yaradanını açmaqdan uzaq idisə, bu yaraları görür, öz şikayət və etirazlarını pafoslu aforizmlərdə ifadə edirdi. Bəzən də yazıçı realist səhnələr yaradırdı. 1920-ci ilə qədər onun bir sıra əsərlərində romantizm ilə realizm birləşir. Dramaturq bəzən romantizmdən realizmə keçirdi” [4, s.86]. Göründüyü kimi, romantik sənət realizmlə müqayisədə dəyərləndirilir, onun poetik bütövlüyü tədqiqat müstəvisində realizm axtarışları ilə zədələnirdi.

Qeyri-ədəbi formullara əsaslanan ideoloji sovet tənqidi realist sənəti ideyaca daha sağlam, romantik sənəti isə natamam hesab edirdi. Professor Şirindil Alışanlı yazır: “Romantizmə münasibətdə vulqar-sosioloji qalıqlar 40-50-ci illərin nəzəri tədqiqatlarında da tam aradan götürülmür. Romantizm bir metod kimi yalnız dünyagörüşü mövqeyindən araşdırılır, romantik sənətin spesifik mahiyyəti haqqında elmi fikirdə ciddi nailiyyətlər müşahidə olunmur. H.Cavid, M.Hadi, A.Səhhət haqqındakı tədqiqatlarda bu sənətkarların yaradıcılığı sosialist realizmi və ya tənqidi realizm ədəbiyyatının təhlilində əsas götürülən meyarlar əsasında qiymətləndirilir” [1, s.125].

İdeoloji basqının yumşaldığı keçən əsrin 60-cı illərində ədəbi proses yenilənmələr dönəminə qədəm qoydu. Bu yenilənmə romantik sənətə münasibətdə də özünü göstərdi. Bədirxan Əh-

mədov doğru deyir ki: "Ədəbiyyatımızın keyfiyyət baxımından dəyişilməsində 60-cılar nəslinin rolu qabardılarkən, nədənsə, tənqid və tənqidçilər unudulur. Halbuki yeni ədəbiyyatın və ictimai fikrin təşəkkülündə Məsud Əlioğlu, Asif Əfəndiyevlə yanaşı, Yaşar Qarayevin də obrazlı, fəlsəfi tənqidinin funksionallığını yaddan çıxarmamaq gərəkir" [2].

**Əsas hissə / *Main Part***

Keçən əsrin 60-cı illərində meydana çıxan Yaşar Qarayevin "Faciə və qəhrəman" monoqrafiyasında Hüseyn Cavidin "Şeyx Sənan" və "İblis" faciələrinə istinadən aparılan təhlillərdə elmi-ədəbi düşüncə romantizmə münasibətdə tamamilə özünü yenilədi. Hüseyn Cavid Azərbaycan ədəbiyyatında milli romantizmi formalaşdıran sənətkardısa, onun "Şeyx Sənan" və "İblis" faciələri bu prosesi ən çox özündə ehtiva edən əsərlərdir. Odur ki, bu pyeslərin romantik faciələr kimi təhlil müstəvisinə çıxması milli romantizmin poetik sistemini bütün yönləri ilə dərk etmək şansı verir.

Romantik sənətdə realizmin izlərini axtaran, daha doğrusu, bunu görmək istəyən ideoloji tənqiddən fərqli olaraq, Yaşar Qarayev realist faciədə də romantizm axtarır və bunu faciənin məziyyəti kimi qiymətləndirir: "Ümumiyyətlə, sırf, təmiz realist faciə yoxdur. Məgər "Müsibəti-Fəxrəddin", "Dağılan tifaq" kimi realist faciələr romantik ünsürlərlə zəngin deyildirmi?" [3, s.96] Faciə böyük ideallarla yaşayan insanların tragik taleyinin mövzuya çevrildiyi janrdır, təbii ki, belə ideallar da ancaq romantik təbiətlərdə doğur, yaxud bu ideallar romantik xəyallardan qidalanır. Ona görə də Yaşar Qarayevin "romantik ünsürsüz realist faciə yoxdur" ədəbi formulası olduqca doğrudur.

Məlumdur ki, dramaturgiyanın əsası antik yunan ədəbiyyatında faciə janrı ilə qoyulmuşdur. Antik yunan, o cümlədən də dünya dramaturgiyasının ən şah əsərləri məhz bu janrda yazılmışdır. Esxilin "Zəncirlənmiş Prometey", Sofoklun "Kral Edip", "Antiqona", Evripidin "Medeya", Şekspirin "Hamlet", "Otello", Şillerin "Qaçaqlar" kimi dünya ədəbiyyatının şah əsərləri məhz faciə janrındadır. Ancaq dramatik növün digər janrları olan komediya və dramda bu səviyyədə əsərlər göstərmək mümkün deyildir. Bu janrlar realist poetikada yarandıqlarından romantik poetikada yaranan, yaxud bu poetikanın bu və ya digər şəkildə özünü əsərin bədii strukturunda göstərdiyi faciə qədər dərin məna-məzmun, dolğun xarakter ortaya qoymaq şansı yoxdur.

Yaşar Qarayev milli romantizm nümunələrini təhlilə keçməzdən əvvəl romantik sistemin bədii xüsusiyyətlərini və romantik faciə poetikasını şərh edir. Əvvəlki illərin tənqidindən fərqli olaraq Yaşar Qarayev bu sistemin və bu poetikanın qanunauyğunluqlarından çıxış edərək, Cavid romantizmini araşdırır. Araşdırmasına marksist tənqidin Cavid irsinə münasibətdə yanlışlıq etdiyi bir məqamdan – romantik sənətlə realist sənət estetikası arasındakı fərqi nəzərə almamaqdan başlayır. Y.Qarayev romantik faciənin realist faciədən fərqli bir şey olduğunu, bu janrda tragik xarakterin tamamilə yeni bir tipi və dramatik konfliktlərin yeni formaları olduğunu vurğulayır. Alim bununla sanki romantik faciələri realizmin bədii formulalarından çıxış edib dəyərləndirənlərə cavab verir.

Yaşar Qarayev romantik faciəni yalnız nəzəri bir anlayış kimi deyil, həm də fəlsəfi bir anlayış kimi araşdırır. "Romantik faciənin əsasında da, ümumiyyətlə, romantizmin ideya-estetik xüsusiyyətləri, öz təzadlı və mürəkkəb mənəvi aləmi ilə romantik insan xarakteri durur. Şəxsiyyət öz nəhəng hissiyyatı ilə dramatik inkişafa hərəkət və istiqamət vermiş olur. Romantik faciə çox vaxt məhz ehtiras və xarakter faciəsi kimi meydana çıxır. Burada tragik xarakter ümumi əxlaqi ziddiyyətləri, "dünya vəziyyətini" öz şəxsi, subyektiv "mən"ində təcəssüm etdirir. Obrazlı desək, romantik faciədə real dünyanı "mənəvi dünya" əvəz edir, "dünya vəziy-

yəti"ni "ruhun vəziyyəti" ifadə edir" [3, s.94-95]. Romantik faciənin bu fəlsəfəsinə vaqif olmadan onu nəzəri bir anlayış kimi dərk etmək, bir bədii mətn kimi şərh etmək mümkün deyildir. Marksist tənqid də Cavid faciələrini romantizm fəlsəfəsindən kənarda şərh etdiklərindən yanlış qənaətlərə gəlirdi. Yaşar Qarayev "Şeyx Sənan" və "İblis" pyeslərini romantik facıə kimi oxumağa keçməzdən əvvəl bu janrın ideya-fəlsəfi sistemini şərh edir. Onun bu sözləri romantik mətnin kodlarına açar rolunu oynayır: "Klassik romantik faciələrdə tragik xarakterin şəxsində biz çox vaxt ağlın və düşüncənin, biliyə və idraka olan ehtirasın ən möhtəşəm mücəssəmələrinə rast gəlirik. Burada dramatik inkişafın da əsasında məhz fikrin hərəkəti, fəlsəfi sistemlər, ideyalar, toqquşan təzadlı həqiqətlər dayanır. "Şeyx Sənan" və "İblis" məhz bu tipli romantik faciə əsərləridir. Cəmiyyətdəki faciəli vəziyyəti ilə barışmayan, həqiqət və ədalət axtaran, azadlığa, sərbəstliyə ehtirasla can atan narahat insanlar belə əsərlər üçün tipik fəlsəfi qəhrəmanlardır" [3, s.96].

Onu da qeyd edək ki, romantizmdən danışarkən mürtəce, mütərəqqi kəlmələrinə Y.Qarayevdə də rast gəlirik. Ancaq o, bu kəlmələrlə romantik irsi damğalamır. Dini-rəmzi ünsürlərin iştirakına görə mürtece romantizm bölgüsünə qarşı çıxır, mürtəce və mütərəqqiliyin ideya, fikir məsələsi olduğunu vurğulayır.

Yaşar Qarayevin bu araşdırması sanki ədəbi tənqidin Cavid irsinə haqsız hücumlarına bir cavabdır. Məlumdur ki, Cavidin mövzu və qəhrəmanları əsasən Azərbaycan sərhədlərindən kənarda idi, bu da ədəbi ictimaiyyətdə şübhə, narazılıq və iradlarla qarşılanırdı. Y.Qarayevin təhlili isə bütün bu irad və şübhələrə tutarlı cavab ola bilir. Alim romantik faciə poetikasından çıxış edərək vurğulayır ki, romantiklər üçün milliliyin çərçivəsi dardır və onlar yaradıcılıqlarında bəşəri mövzulara can atırlar. Milli romantizmi qeyri-millilikdə suçlayan ədəbi tənqiddən fərqli olaraq Y.Qarayev "kənar mövzu"lara müraciəti müsbət dəyərləndirir, onların dramaturgiyamıza bəşəri vüsət, milliliyin bəşəriliklə birləşən hüdudlarını gətirdiyini söyləyir. Cavid faciələrində bu hüdudların genişliyi ideya-məzmununu dərinləşdirdiyi kimi fəlsəfi vüsətini də artırır. Bildiyimiz kimi, dini fanatizmin tənqidi əleyhinə əsərlər həmin dönəmdə çox yazılırdı. Amma "Şeyx Sənan" qədər bu mövzuda dərin məna-məzmun ortaya qoyan əsər isə demək olar ki, yox idi.

Yaşar Qarayev yazırdı: "Şeyx Sənan"ı dinin təəssübü əleyhinə yazılmış bütün başqa əsərlərdən ayıran cəhət, birinci növbədə, ondakı fəlsəfi konfliktin miqyasıdır. ...Sənanı düşündürən "mübhəm" və "pərdəli" hikmətlərdir: Nədir haqq? – etiqadmı, ya həqiqətmi? Dinlərin, təriqət və təlimlərin mənası, zəruriliyimi, yoxsa insan duyğularının təbiiliyi, saflığı və azadlığımı? Həyat, məhəbbət, yoxsa sitayiş, etiqad? – hansı haqdır?! Sənanın aradığı – "haqqın nurudur", həqiqət işığıdır.

Bəs başqa qəhrəmanın – Arifin axtardığı nədir? Yenə də "nuri-həqiqət!" Əsrlərin və nəsillərin tapmadığı əzəli, əbədi bir hikmət: nə qalib gələcək? – kamal, yoxsa qüvvət? Bəşər dühası, ya şər? İblis, ya İnsan?" [3, s.399]

Faciə həyatı sorğulayan, şübhələrdən həyatın mənasına, yaşamın mahiyyətinə yol alan janrdır. Təsadüfi deyildir ki, bu janr dünya fəlsəfi fikrinin babası sayılan antik yunan filosofu Sokratın "Sorğulanmayan həyat yaşanmaya dəyməz" fikrinin yaranıb formalaşdığı cəmiyyətdə meydana çıxmışdır. Həyatı sorğulayan bir zehniyyət romantik faciənin qəhrəmanı olmaq potensialına malikdir. Yaşar Qarayev milli romantizmi formalaşdıran və indiyə qədər də onun ən yaxşı nümunələri olan "Şeyx Sənan" və "İblis" əsərlərinin ideya-mövzusunun doğduğu sorğuları aşkara çıxara bilmişdir. "Şeyx Sənan"ın bədii strukturu Yaşar Qarayevə görə "Nədir haqq? – etiqadmı, ya həqiqətmi?", "İblis"in bədii strukturu isə "İblis, ya insan?" sualları [3, s.99] üzərində qurulmuşdur.

Yaşar Qarayev Hüseyn Cavid faciələrinin qəhrəmanını "həqiqət axtarıcısı" adlandırır [3, s.100] və bunu Cavid yaradıcılığının özəlliyi kimi şərh edir. Əslində isə bu, faciə janrının tipik

qəhrəmanıdır. Tragik qəhrəmanı epik və lirik qəhrəmanlardan fərqləndirən əsas özəllik onun həqiqət axtarıcısı olmasıdır. O, doğrudur ki, Cavidin qəhrəmanları, xüsusən də Şeyx Sənan və Arif bu özəlliyi daha çox özlərində təcəssüm etdirirlər, çünki romantik qəhrəmanların çılğın təbiəti onları daha üsyankar, daha səsli edir.

"İblis"in təhlilində alim yazır: "İblis" maarifçilik və humanizm cəbhəsindən yazılmış romantik bir əsərdir və "İblis"ə məhz bu nöqteyi-nəzərdən yanaşmaq onu daha dərindən başa düşməyə və təhlil etməyə kömək edir. Ümumiyyətlə, şərin əbədiliyi və deməli, şərlə mübarizənin əbədiliyi ideyasını poeziyada romantik konsepsiyanın əsasında çox tez-tez görürük. "Dünyanın naqisliyi" ideyası burada həm də insanın naqisliyi şəklində özünü göstərir. Təsadüfi deyil ki, romantik poeziyada xeyir və şər həmişə vəhdətdə və mübarizədə təqdim edilir: Allah – Lüssifer, Faust – Mefistofel, Karl Moor və s. "İblis"də belədir" [3, s.113].

Y.Qarayev "İblis"i maarifçilik və humanizm cəbhəsindən yazılmış əsər hesab edir. Fikrimizcə, "İblis"in bu cəbhəyə aidiyyatı hər bir normal əsərin maarifçilik və humanizm ideyalarına aidiyyatından çox deyil. Əslində Hüseyn Cavidin Azərbaycan romantik ədəbiyyatının yaradıcısı kimi xidməti odur ki, o, milli romantizmi Şərq romantizminin didaktik üslubundan, humanizm ideyaları məhvərindən qoparıb yeni fəlsəfi müstəviyə çıxarır. Bu müstəvinin soru və sorunları xeyrin, gözəlliyin, insana məhəbbətin təbliğindən daha dərindir.

Yuxarıdakı fikrində Yaşar Qarayev ilk olaraq maarifçilik və humanizm cəbhəsindən söz açsa da, sonra bu fikrini davam etdirməmiş, pyesin təhlilini "dünyanın naqisliyi" probleminin romantik həlli üzərində cəmləmişdir. Alim bu problemin romantik həllini daha doğru rakursdan, daha düzgün yanaşmalardan izləmək üçün əsərin baş qəhrəmanı İblis obrazının mifik, fəlsəfi və bədii tiplərini araşdırmış, onun simvolik məna-məzmununu ümumiləşdirmiş bir şəkildə vermiş, bədii obrazının təkamül tarixini izləmişdir. Yaşar Qarayev İblisi yalnız şərin simvolu kimi izah etmir, təhlili bu obrazın daşıdığı fəlsəfi mənanı açmaq üzərində qurur.

"İblis" pyesinin problematikası haqda Y.Qarayev yazır: "Xilqətin sirri və səbəbi, bəşər dühası və şər, sonralar "İnsan"da (S.Vurğun) əksini tapan "qalib gələcəkmi cahanda kamal" fəlsəfəsi – "İblis"dəki müxtəsər problematika belədir" [3, s.113]. Əslində isə "İblis" pyesi kamalın cahanda qalibiyyətinin deyil, məğlubiyyətinin mövzu-problematikası üzərində qurulub. "İnsan" (S.Vurğun), "qalib gələcəkmi cahanda kamal" ilə sualı qalibiyyətə doğru gedən yolu "İblisi"in məşhur "İblis nədir? – Cümlə xəyanətlərə bais... Ya hər kəsə xain olan insan nədir? İblis!" sualı isə məğlubiyyətin səbəbləri üzərində düşünür. O da doğrudur ki, bu suallar hardasa məna-məzmunca kəsişirlər. Amma eyni zamanda bu məna-məzmuna fərqli yanaşma ortaya qoyurlar. "İnsan"ın sualı sosialist realizminin estetik prinsiplərinə uyğun olaraq nikbin, "İblis"in sualı isə bədbin əhvali-ruhiyyədədir. Bu sualda Füzuli kədəri var, o, Şərq romantizminin ilahi kədərinin yeni məzmunda davamıdır. "İblis"in kədəri oxucunu pessimizmə yuvarlatmır, insan əməli ilə bağlı dərin fəlsəfi düşüncələrə daldırır.

Yaşar Qarayevin araşdırması milli romantizmə münasibəti yeni müstəviyə gətirsə də, bəzən dövrün stereotiplərindən qaça bilmir. Doğrudur, bunlar onun təhlil və araşdırmasında aparıcı xətt deyil, hətta üzərində durulmayan, davam etdirilməyən fikirdir. Məsələn, "Şeyx Sənan"ın təhlilində Yaşar Qarayev yazır: "Din isə azad sevginin düşmənidir" [3, s.105]. Sovet humanitar fikrində dinlə dini mövhumat eyniləşdirilirdi. Din sevgidə məcburiyyətin tərəfdarı deyil. Şeyx Sənanla Xumarın sevgisinə dini qandallar vuran nə islam, nə də xristianlıq dini idi. Onların azad sevgisinə məhdudiyyət və məcburiyyət qoyan mövhumi mühit idi ki, Yaşar Qarayev özü bu mühiti "kor şeyxlər, kinli papaslar" mühiti deyə daha dəqiq və konkret şəkildə ifadə edir. "Təmiz insan sevgisinin, ülviyyət və gözəlliyin şairanə zirvəsinə ucalan Sənan və Xumar kor şeyxlər, kinli papaslar mühitini aşağıda

buraxır və mənəvi bir yüksəklikdən Kürün müqəddəs dalğaları qucağına atılırlar" [3, s.106]. Göründüyü kimi, Yaşar Qarayev Sənanla Xumarı həyatın qoynundan kürün qucağına itələyən qüvvənin din yox, mövhumi mühit olduğu qənaətinə gəlir.

### Nəticə / *Conclusion*

Yaşar Qarayev "Faciə və qəhrəman" əsərində romantik faciəni məhz romantik sənət qanunauyğunluqlarından və dünya romantik sənəti kontekstində izləyir. Bu araşdırma sanki Hüseyn Cavid yaradıcılığının simasında milli romantizmə olan haqsız hücumlara bir cavabdır. Bu araşdırmaya qədər sovet ədəbi tənqidinin siyasiləşmiş təhlillərinin ən çox hədəfində milli romantizm dayanmışdı. Yaşar Qarayevin təhlili, romantik sənətlə bağlı tədqiqatları yeni mərhələdir. Bu mərhələ milli romantik faciənin təhlil müstəvisini dəyişir. Onu siyasi müstəvidən sənət müstəvisinə keçirir, ədəbi-nəzəri fikri milli romantizmə münasibətdə məhdud yanaşmalardan, bəzən bəsitliyə enəcək qədər qeyri-elmi yanaşmalardan təmizləyir.

Milli romantizm dəyişən müstəvidə özünün həqiqi dəyərini alır, elmi-nəzəri təhlilini tapır. Yaşar Qarayev "İblis" və "Şeyx Sənan" faciələrinə əsasən romantik faciə poetikasının elmi-nəzəri təhlilini verir.

### Ədəbiyyat / *References*


1. Alışanlı, Ş. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi. – Bakı: Elm, 2013.
2. Əhmədov, B. Ədəbi-tənqidi fikrimizin patriarxı – Yaşar Qarayev. – "525-ci qəzet", 2014, 6 mart.
3. Qarayev, Y. Faciə və qəhrəman. – Az. SSR Elmlər Akademiyası Nəşriyyatı, 1965.
4. Sultanlı, Ə. Hüseyn Cavidin faciələri // Cavidi xatırlarkən. – Bakı: Gənclik, 1982.


## Проблемы национального романтизма в новом рассмотрении *(по произведению Яшара Караева «Трагедия и герой»)*


**Лейла Аллахвердиева**
Доктор философии по филологии
Сумгаитский государственный университет. Азербайджан.
E-mail: lela_leyla@mail.ru



**Резюме.** В статье последовательно рассмотрены вопросы отражения идей национального романтизма в трагедиях Джавида. В частности, сделан анализ трагедий «Шейх Санан» и «Иблис» по произведению Яшара Гараева «Трагедия и герой». Была определена методологическая, концептуальная база исследования этих произведений сегодня, с учетом опыта идеологического анализа советским литературоведением этих произведений, как классических образцов национального романтизма. Для достижения поставленной цели прежде всего было изучено отношение вульгарно-социологической критики к национальному романтизму, выявлены факторы, формирующие это отношение, и их влияние на принципы анализа.

Яшар Гараев в анализе романтического наследия, на фоне идеологической критики формулирует новую научно-теоретическую концепцию. В статье рассматриваются теорети-

ческие положения, познавательный и эстетический аспекты этой концепции. Делается вывод, что исследование Яшара Гараева ставит точку на пути понимания и изучения романтической литературы как искусства противоположного фронта, выводя литературную мысль из однобоких, политизированных подходов марксистской критики в научно-теоретическую плоскость, открывающую романтизм как художественную систему. Это исследование явилось новым этапом не только в изучении романтизма, но и в развитии научной и филологической мысли в целом.

**Ключевые слова:** национальный романтизм, трагедия, Гусейн Джавид, советский, Яшар Гараев, литературное наследие